№ 23-24 (831) 30 dekabr 2025-ci il ● Qəzet 1991-ci ildən nəşr olunur ● www.health.gov.az; ● www.tibbqazeti.az

TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

Səhiyyə Nazirliyinə yeni tapşırıqlar verildi

2

Məhkəmə ekspertizası üzrə Konsepsiya qəbul olundu

3

Naftalan neftinin tibbi məqsədlər üçün istifadəsinə dair Tədbirlər Proqramı qəbul edildi

5

Bakıda yeni Sümük iliyi transplantasiyası mərkəzi açılıb

Liv Bona Dea Hospitalında Sümük iliyi transplantasiyası mərkəzinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev iştirak ediblər.

Leyla Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun himayəsi altında xəstəxanada müalicə alan azyaşlıya baş çəkib, onun səhhəti ilə maraqlanıb, hədiyyə təqdim edib.

6

Leyla Əliyeva ÜST-nin Avropa üzrə Regional Ofisinin xüsusi nümayəndəsi ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə xüsusi nümayəndəsi Robb Butler ilə görüşüb.

Səh. 4

Azərbaycanla Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Səh. 6

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY

www.arash.az

Azərbaycanın ilk beynəlxalq kardiologiya jurnalının 3-cü nömrəsi təqdim edilib

Azərbaycanın ilk beynəlxalq, ingilisdilli, DOI ilə indekslənmiş kardiologiya jurnalı olan «Journal of Heart Disease and Therapy» - «Ürək xəstəlikləri və onların müalicəsi» jurnalının artıq 3-cü nömrəsi çapdan çıxıb. Beynəlxalq redaksiya və rəyçilərə malik, Ali Attestasiya Komissiyası tərəfindən təsdiqlənmiş və dövri nəşriyyatlar siyahısına daxil olunmuş jurnal ictimaiyyətə təqdim edilib.

13

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin iştirakçılarına

Hörmətli konqres iştirakçıları!

Sizi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Dünyanın mötəbər tibb qurumlarını təmsil edən tanınmış alim və mütəxəssislərin iştirak etdiyi bu konqresdə tibb elminin və səhiyyənin müxtəlif aspektlərinə dair ətraflı fikir mübadiləsi aparılacaqdır. Beynəlxalq praktikadan qarşılıqlı surətdə faydalanmaqla aktual məsələlərin müzakirəsinə və həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Dövlətin səhiyyə siyasətinin hədəflərinə uyğun olaraq tibb ocaqları ən müasir standartlar səviyyəsində yenidən qurulur, araşdırmaların son tibbi texnoloji nailiyyətlərin tətbiqi ilə elm və təcrübənin vəhdətində aparılması təşviq edilir. Bu istiqamətdə üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gələn Həkimləri Təkmilləşdirmə İnstitutunun özünəməxsus xidmətləri vardır.

İnstitut yarandığı vaxtdan etibarən zəngin bir yol keçmişdir. Tarixinin parlaq səhifələri görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adı ilə bağlı olan bu qocaman elm-tədris müəssisəsində məşhur alimlər nəslinin vaxtilə formalaşdırdığı peşəkar mühit indi də lazımınca qorunur. İnstitut öz bazasında topladığı yüksək hazırlıqlı professor-müəllim heyəti ilə həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində uğurlar əldə edən, mütərəqqi təcrübənin öyrənilərək elmi-praktiki müstəvidə tətbiqinə böyük diqqət yetirən və beynəlxalq əlaqələrini davamlı genişləndirən mərkəz kimi nüfuz qazanmışdır.

Bu baxımdan beynəlxalq miqyaslı belə mühüm bir tədbirin məhz İnstitutun 90 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Əminəm ki, konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlığını daha da möhkəmləndirəcək, insanlara göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi və ümumilikdə tibb elminin inkişafı işinə töhfəsini verəcəkdir.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 dekabr 2025-ci il

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu əməkdaşlarının «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun aşağıdakı əməkdaşları «Tərəqqi» medalı ilə təltif edilsinlər:

Cavad-zadə Mir-Riad Mir-Məmməd oğlu
Eyvazov Təyyar Haşım oğlu
Əfəndiyev Akif Zahid oğlu
Meybəliyev Məmmədəli Tələt oğlu
Məmmədova Nailə Yusif qızı
Mirzə-zadə Valeh Ağasafa oğlu.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 dekabr 2025-ci il

Səhiyyə Nazirliyinə yeni tapşırıqlar verildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev imzaladığı yeni Sərəncamla «Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı»nı təsdiq edib.

Sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi üçün statistik məlumat istehsalının dayanıqlılığını və milli statistika sisteminin inkişafını təmin etmək məqsədilə qəbul edilən Dövlət Proqramında Səhiyyə Nazirliyinə dair də bəndlər var.

Belə ki, Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının bir neçə bəndində Dövlət Statistika Komitəsi əsas icraçı qurum, Səhiyyə Nazirliyi isə digər icraçılardan biridir.

Tədbirlər Planının «Statistik müşahidələr və onlara dair metodologiyalar» bölməsinin «Sosial statistika» altbölməsi üzrə «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinə dair statistik göstəricilər sisteminin təkmilləşdirilməsi», eləcə də «Çoxsahəli statistika» altbölməsi üzrə «Yaşıl inkişafa dair statistik göstəricilər sisteminin təkmilləşdirilməsi» bəndlərində Səhiyyə Nazirliyinin iştirakı nəzərdə tutulub.

«Rəsmi statistika materialları istehsalının hüquqi və informasiya təminatı» bölməsində isə «Avropa İttifaqının «Statistical classification of economic activities in the European Community (NACE Revision 2.1)» təsnifatı əsasında yeni milli «İqtisadi fəaliyyət növləri təsnifatı»nın hazırlanması və tətbiqi» bəndinin icrasında Səhiyyə Nazirliyi də iştirak edəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş «Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı»nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, №1, maddə 55 (Cild I); 2024, №12 (I kitab), maddə 1316) ilə təsdiq edilmiş «Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı»nın «Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti» bölməsinə aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

«2. «Gəncə Müalicə Diaqnostika Mərkəzi»MMC-nin Qanköçürmə şöbəsi».

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 19 dekabr 2025-ci il

Məhkəmə ekspertizası üzrə Konsepsiya qəbul olundu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya»nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

Dövlət başçısı məhkəmə ekspertizası sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin təkmilləşdirilməsi, habelə bu sahədə fəaliyyətin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə adıçəkilən Konsepsiyanı təsdiq edib. Sərəncamla Nazirlər Kabinetinə Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət olunması tapşırılıb. Tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini isə Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

«Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026 - 2030-cu illər üçün Konsepsiya»da və onun icrasına dair Tədbirlər Planında Səhiyyə Nazirliyinə aid bir sıra bəndlər var.

Konsepsiyanın «Mövcud vəziyyətin təhlili» adlanan 3-cü fəslində bildirilir ki, hazırda ölkəmizdə qeyri-tibb məhkəmə ekspertizası sahəsində əsas fəaliyyət Ədliyyə Nazirliyi tərəfindən, məhkəmə-tibb ekspertizası sahəsində isə Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir. Bundan başqa, hərbi qulluqçulara və hərbi məhkəmələrin (hərbi prokurorluqların) səlahiyyətlərinə aid edilmiş cinayət işləri və inzibati xətalar haqqında işlər üzrə hərbi qulluqçu olmayan şəxslərə münasibətdə məhkəmə-tibb ekspertizası həmçinin Müdafiə Nazirliyi, ilkin və əlavə məhkəmə daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə ballistik ekspertizaları isə həmçinin Daxili İşlər Nazirliyi tərəfindən icra olunur. Bildirilir ki, Səhiyyə Nazirliyinin «Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi» publik hüquqi şəxsi (MTEPAB) tərəfindən 8 növ ekspertiza olunur. 2024-cü ildə bu birlik 76 168 ekspertiza edilib. Bu, bütün hadisələrin 51 faizi deməkdir. Səhiyyə Nazirliyinin «Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi» publik hüquqi şəxsi (MPEM) isə 2 növ ekspertiza edir. Keçən il bu mərkəzin icra etdiyi 5142 hadisə bütün ekspertizaların 3,5 faizidir. Digər məhkəmə ekspertizası idarələri Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi (MEM), Müdafiə Nazirliyinin Məhkəmə Tibbi-Ekspertiza və Patoloji Anatomiya Mərkəzi (MTEPAM) və Daxili İşlər Nazirliyinin Kriminalistik Tədqiqatlar İdarəsidir (KTİ), bunlar da müvafiq olaraq ekspertizaların 28,5, 15,8 və 1,2 faizini təşkil edir. Beləliklə, keçən il ölkəmizdə icra olunan ekspertizaların 54,5 faizi məhz Səhiyyə Nazirliyinin məhkəmə ekspertizası idarələrinin payına düşür.

Konsepsiyanın icrasına dair Tədbirlər Planının «Məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətində keyfiyyət təminatı sisteminin yaradılması və ayrı-ayrı növ məhkəmə ekspertizalarının aparılması sahəsində vahid standartların müəyyən olunması» bölməsinin «Məhkəmə ekspertizası sahəsində standartlaşdırma üzrə texniki komitələrin yaradılması məqsədilə zəruri tədbirlər görülməsi», «Məhkəmə ekspertizası ensiklopediyasının hazırlanması» və «Məhkəmə ekspertizası idarələrində keyfiyyət təminatı sisteminin qurulması» yarımbəndlərində Səhiyyə Nazirliyi əsas icraçılardan, «Yeni çağırışlar, qlobal trendlər və qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi», «Məhkəmə ekspertizası sahəsində dövlət standartlarının hazırlanması və qəbulu», «Sınaq laboratoriyalarının «Uyğunluğun qiymətl əndirilməsi sahəsində akkreditasiya haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçirilməsi» və «Məhkəmə ekspertizasının aparılması şərtlərini və qaydalarını müəyyən edən təlimatın hazırlanması» yarımbəndlərində digər icraçılardan biridir.

Tədbirlər Planının «Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsallaşdırılması» bölməsinin «Məhkəmə ekspertizası sahəsində vahid informasiya sisteminin fəaliyyətinin təşkili, dövlət orqanlarının (qurumlarının) aidiyyəti dövlət informasiya sistemlərinin və ehtiyatlarının həmin sistemə inteqrasiyasının təmin edilməsi», «Məhkəmə ekspertizası idarələrinin maddi -texniki təminatının gücləndirilməsi» və «Məhkəmə ekspertizası sahəsindəki mövcud rəqəmsal informasiya resurslarının, o cümlədən metodik fond və reyestrlərin təkmilləşdirilməsi» yarımbəndlərinin icrası əsas icraçı kimi Nazirlər Kabinetinə həvalə olunub. Səhiyyə Nazirliyi bu yarımbəndlərin digər icraçılarından biridir. Bölmənin «Məhkəmə ekspertizası fəaliyyəti sahəsində süni intellektin tətbiqi imkanlarının araşdırılması və nəticəsindən asılı olaraq tədbirlər görülməsi» yarımbəndinin icrası isə Ədliyyə, Səhiyyə, Daxili İşlər və Müdafiə nazirliklərinə tapşırılıb.

Səhiyyə Nazirliyi həmçinin sənədin «Özəl məhkəmə ekspertlərinin səmərəli fəaliyyətinin təmin edilməsi» bölməsinin «Özəl məhkəmə ekspertizası institutunun fəaliyyətinin genişləndirilməsinə dair təkliflər hazırlanması» yarımbəndinin icraçılarından biridir.

Tədbirlər Planının «Məhkəmə ekspertizası idarələrinin kadr potensialının və məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi» bölməsinin «Beynəlxalq təcrübə və iş yükünün dinamikası nəzərə alınmaqla, məhkəmə ekspertizası idarələrinin ştat vahidlərinin sayının artırılması ilə bağlı təkliflər hazırlanması», «Məhkəmə ekspertinin ixtisası üzrə tələb olunan baza ali təhsil sahələrinin müəyyən edilməsi və bu sahələrdə ixtisaslı kadrların məhkəmə ekspertizası fəaliyyətinə cəlb edilməsi üzrə tədbirlər görülməsi», «Məhkəmə ekspertlərinin nəzəri-praktiki hazırlığı, habelə onların bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu məqsədlə xüsusi təlim proqramlarının hazırlanması», «Məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən əməkhaqlarının artırılması ilə bağlı təkliflər hazırlanması» yarımbəndlərinin icrası əsas icraçı kimi Nazirlər Kabinetinə həvalə olunub. Səhiyyə Nazirliyi bu yarımbəndlərin digər icraçılarından biridir.

Tədbirlər Planının «Məhkəmə ekspertizası idarələrinin infrastrukturunun, maddi-texniki təminatının gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi» adlanan növbəti bölməsinin də əsas icraçısı Nazirlər Kabinetidir. Səhiyyə Nazirliyi bu bölmənin «Məhkəmə ekspertizası fəaliyyətinin maliyyə dayanıqlılığının təmin edilməsi və maliyyələşmə mənbələrinin genişləndirilməsi, ekspertiza xərclərinin ödənilməsi mexanizmləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi» və «Məhkəmə ekspertizası idarələrinin mərkəzi və yerli qurumlarının ehtiyacları nəzərə alınmaqla yeni binaların inşa edilməsi ilə bağlı tədbirlərin görülməsi» yarımbölmələrinin digər icraçılarından biri kimi müəyyən olunub.

Nazirlər Kabineti transplantasiya ilə bağlı qərarlarına dəyişiklik etdi

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş «Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı»nda dəyişiklik edilməsi haqqında Qərar imzalayıb.

Sənədə əsasən, həmin Siyahının on dördüncü sətrinə «gözün buynuz qişası» sözlərindən sonra «sümük iliyi» sözləri əlavə edilib.

Baş nazirin imzaladığı digər Qərara əsasən, Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş «Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı»nda da dəyişiklik olunub.

Belə ki, Siyahının on dördüncü sətrinə «gözün buynuz qişası» sözlərindən sonra «sümük iliyi» sözləri əlavə edilib.

Leyla Əliyeva Səhiyyə Nazirliyi 5 saylı Uşaq Vərəm Sanatoriyasını ziyarət edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev Səhiyyə Nazirliyi 5 saylı Uşaq Vərəm Sanatoriyasını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, ziyarət çərçivəsində müəssisənin fəaliyyəti, tibbi xidmətlərin təşkili və uşaqlar üçün yaradılan şəraitlə tanışlıq olub. Dispanserdə aparılan yenilənmə işləri, göstərilən diaqnostik və müalicə xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər müzakirə edilib.

Səhiyyə naziri Teymur Musayev ölkəmizdə uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən layihələrə verilən dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib.

Səhiyyə ilə bağlı qanunlara dəyişikliklər edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Azərbaycan Respublikasının Vergi Məcəlləsində, «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında», «Sosial sığorta haqqında», «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında», «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında», «Tibbi sığorta haqqında», «Dövlət rüsumu haqqında», «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında», «Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında», «Sığorta fəaliyyəti haqqında», «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında», «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Uşaqların icbari dispanserizasiyası haqqında», «Gömrük tarifi haqqında», «Nağdsız hesablaşmalar haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının Qanununu imzalayıb.

Sənədə əsasən dəyişikliklər olunan qanunlar arasında səhiyyə ilə əlaqəli qanunlar da var.

Belə ki, «Tibbi sığorta haqqında» Qanunun 1.1.6-cı maddəsinə «şəxs» sözündən sonra «müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)» sözləri əlavə edilib. 15-2-ci maddəyə aşağıdakı məzmunda maddə əlavə olunub: «15-2.2.3-1. «Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qeyri-formal məşğulluğun təsir dairəsinə düşən şəxslər sığortalı qismində özləri çıxış edirlər».

Qanunun 15-2.2.4-cü maddəsinə «15-2.2.3-cü» sözlərindən sonra «və 15-2.2.3-1-ci» sözləri əlavə edilib və həmin maddədə «sığortaolunanlar sığortalı qismində özləri çıxış edirlər» sözləri «sığortaolunanların sığortalısı qismində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) çıxış edir» sözləri ilə əvəz olunub. Həmçinin aşağıdakı məzmunda 15-2.5-ci maddə əlavə edilib: «Bu Qanunun 15-2.2.3-1-ci maddəsində nəzərdə tutulmuş sığortalıların müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir».

15-10.1.1-ci maddədə «15-2.1-ci» sözləri «15-2.2.4-cü» sözləri ilə, «90 manat» sözləri «müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdə» sözləri ilə əvəz olunub. 15-10.1.2-ci maddəyə «muzdla» sözündən əvvəl «bu Qanunun 15-10.1.2-1-ci maddəsinin müddəaları nəzərə alınmaqla,» sözləri əlavə olunub. Aşağıdakı məzmunda 15-10.1.2-1-ci maddə əlavə edilib: «neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən şəxslər üzrə - sığortalı tərəfindən işçinin əməkhaqqının 2500 manatadək olan hissəsindən 2 faiz, 2500 manatdan yuxarı olan hissəsindən 0,5 faiz, sığortaolunan tərəfindən əməkhaqqının 2500 manatadək olan hissəsindən 2 faiz, 2500 manatdan yuxarı olan hissəsindən 0,5 faiz». 15-10.1.5-ci maddədə «15-2.2.4-cü» sözləri «15-2.2.3-1-ci» sözləri ilə, «minimum aylıq əməkhaqqının 48 faizi» sözləri «müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdə» sözləri ilə əvəz olunub. 15-10.1.6-cı, 15-10.1.7-ci, 15-10.2-ci, 15-11.7-ci və 15-11.8-ci maddələr ləğv edilib.

Həmçinin müəyyən olunub ki, dövlət icbari şəxsi sığortası ilə əhatə olunan şəxslər üçün bu Qanunun 15-10.1.1-ci maddəsində nəzərdə tutulan adambaşına maliyyələşmə çərçivəsində dövlət büdcəsindən vəsait ayrılmır.

Dəyişikliklər olunan digər qanun «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Qanundur. Bu Qanunun 6.1-ci maddəsinin birinci cümləsində «dövlət büdcəsinin vəsaiti» sözləri «icbari tibbi sığorta vəsaitləri» sözləri ilə əvəz edilib. 6.2-ci maddədən «icbari tibbi sığorta vəsaitləri» sözləri çıxarılıb və həmin maddədə «qanunvericiliklə qadağan olunmayan» sözləri «qanunla nəzərdə tutulan» sözləri ilə əvəz edilib.

«Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında» Qanunda da dəyişikliklər olunub. Belə ki, onun 6.1-ci maddəsi aşağıdakı redaksiyada verilib: «Talassemiya irsi qan xəstəliyi olan şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsi dövlət büdcəsi vəsaiti hesabına, hemofiliya irsi qan xəstəliyi olan şəxslərə münasibətdə isə icbari tibbi sığorta vəsaiti hesabına maliyyələşdirilir». Qanunun 6.2-ci maddəsindən «icbari tibbi sığorta haqları» sözləri çıxarılıb və həmin maddədə «qanunvericiliklə qadağan olunmayan» sözləri «qanunla nəzərdə tutulan» sözləri ilə əvəz edilib.

Dəyişikliklər olunmuş daha bir qanun «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Qanundur. Onun 5.1-ci maddəsinin birinci cümləsində «dövlət büdcəsinin vəsaiti» sözləri «icbari tibbi sığorta vəsaitləri» sözləri ilə əvəz edilib, 5.2-ci maddədən «və icbari tibbi sığorta» sözləri çıxarılıb və həmin maddədə «qanunvericiliklə» sözü «qanunla» sözü ilə əvəz edilib.

«Uşaqların icbari dispanserizasiyası haqqında» Qanunda edilən dəyişikliklər isə aşağıdakılardır: 10.1-ci maddənin birinci cümləsində «dövlət büdcəsinin vəsaiti» sözləri «icbari tibbi sığorta vəsaitləri» sözləri ilə əvəz olunub; 10.2-ci maddədən «və icbari tibbi sığorta» sözləri çıxarılıb və həmin maddədə «qanunvericiliklə» sözü «qanunla» sözü ilə əvəz edilib.

Dövlət başçısı bu Qanunun tətbiqi ilə bağlı Fərman da verib.

İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsi təsdiq olundu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsi haqqında» Fərman verib.

Sənədə əsasən, İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin xərcləri 2621460000 manat məbləğində təsdiq edilib.

Müəyyən olunub ki, bu xərclərin maliyyələşmə mənbələri icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin gəlirləri (1976000000 manat) və icbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitindən (qalığından) 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitdir (645460000 manat).

2026-cı ildə icbari tibbi sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşacaq: əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması (900000000 manat), icbari tibbi sığorta haqları (1000400000 manat), digər daxilolmalar (75600000 manat).

Fərmanla İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin xərcləri də müəyyən edilib. Buraya icbari tibbi sığorta ödənişləri və dotasiyalar (2526000000 manat), «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin (30420000 manat) və «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin (42500000 manat) saxlanılma xərcləri, Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqı (40000 manat), bank xərcləri və digər xərclər daxildir.

Fərman 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

Leyla Əliyeva ÜST-nin Avropa üzrə Regional Ofisinin xüsusi nümayəndəsi ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə xüsusi nümayəndəsi Robb Butler ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Leyla Əliyevaya iqlim və sağlamlıq sahəsində göstərdiyi səmərəli xidmətlərə, COP29 çərçivəsində fəal iştirakına və maarifləndirmə fəaliyyətinə, eləcə də ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının fəaliyyətinə verdiyi dəstəyə görə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi mükafatı təqdim olunub.

Söhbət zamanı IDEA İctimai Birliyi tərəfindən iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib, bu sahədə ÜST ilə Azərbaycan arasında mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Tərəflər Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və insan sağlamlığına potensial təsirləri barədə fikir mübadiləsi aparıb, bu istiqamətdə birgə təşəbbüslər və beynəlxalq çağırışların gücləndirilməsi imkanlarını, o cümlədən Azərbaycanın ÜST-nin «Sağlam şəhərlər» şəbəkəsinə qoşulması perspektivlərini müzakirə ediblər.

Bununla yanaşı, təmiz havanın insan sağlamlığına təsiri, havanın çirklənməsinin azaldılması və bu sahədə maarifləndirmə tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunub.

Naftalan neftinin tibbi məqsədlər üçün istifadəsinə dair Tədbirlər Proqramı qəbul edildi

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov «2026-2029-cu illər üçün Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair Tədbirlər Proqramı»nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Sərəncamını imzalayıb.

«Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinin icrası ilə əlaqədar qəbul edilən sənədə əsasən, Səhiyyə Nazirliyinə təsdiq olunan Tədbirlər Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və bu barədə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılıb.

Tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini isə Səhiyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Tədbirlər Proqramının birinci bölməsində Azərbaycan ərazisində təbii müalicə ehtiyatlarının, müalicə-sağlamlaşdırma yerlərinin və kurortların öyrənilməsi, istifadəsi, inkişafı və mühafizəsinin mühüm rolu vurğulanır, sağlamlıq turizminin inkişafının ölkənin zəngin təbii resursları ilə sıx bağlı olması qeyd edilir. Bildirilir ki, Naftalan neftinin və ondan hazırlanan preparatların istifadəsi sağlamlıq turizminin inkişafında xüsusi əhəmiyyətə malikdir və onun müalicəvi təsirinin olması beynəlxalq miqyasda tanıdılmasını zəruri edir.

Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin yeni tibbi araşdırmalar, elmi tədqiqatlar vasitəsilə öyrənilməsinə, həmçinin beynəlxalq səviyyədə tanıdılmasına və bu məhsulların tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına yönəldilmiş Tədbirlər Proqramında bu sahədə müşahidə edilən qlobal trendlər və onların təsiri qiymətləndirilib, mövcud vəziyyət təhlil edilib, hədəf göstəricilər və prioritet istiqamətlər, o cümlədən icra müddətləri qeyd edilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri əks olunub.

Bildirilir ki, Naftalan neftindən həm sanatoriya-kurort müəssisələrində, həm də tibb və farmakologiya sahələrində geniş istifadə olunur. Müalicə məqsədilə ondan dərman vasitələri və müxtəlif preparatlar hazırlanır. Məhz bu səbəbdən çıxarılan Naftalan neftinin sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğunluğu yoxlanılmalı, o cümlədən onun komponentlərinin insan sağlamlığına təsiri klinik tədqiqatlar aparılmaqla müəyyən edilməlidir. Müalicəvi Naftalan

nefti bəzi dəri xəstəliklərinin (dəmirov, atopik dermatit, neyrodermit) və dayaq-hərəkət sisteminin bəzi xəstəliklərinin müalicəsində uğurla tətbiq olunur. Bundan əlavə, Naftalan neftindən müxtəlif növ kosmetoloji və gigiyenik məhsulların alınması mümkündür.

«Mövcud vəziyyətin təhlili» bölməsində Naftalan neftinin müalicəvi xüsusiyyətləri haqqında məlumatlara tarixi mənbələrdə rast gəlindiyi qeyd olunur. Hazırda dünyada müalicəvi Naftalan neftinin iki mənbəyi məlumdur: Azərbaycanda Naftalan şəhərinin yaxınlığında və Xorvatiyanın İvaniç Qrad şəhərində. Naftalan şəhərində çıxarılan Naftalan neftinin tərkibindəki naften karbohidrogenlərinin miqdarının Xorvatiyada XX əsrin sonunda ilk dəfə çıxarılmış neft ilə müqayisədə yüksək olması onu unikal edir.

XIX əsrin sonu XX əsrin əvvəlində alman mühəndis E.Yeqer tərəfindən Naftalan şəhərində Naftalan neftindən hazırlanmış məlhəm dünyanın bir çox ölkələrində dəri xəstəliklərinin müalicəsində istifadə olunmağa başlanılıb. Sonrakı dövrlərdə Azərbaycanda bir çox təbabət və kimya alimləri onu tədqiq edib, eksperimental işlər aparıb.

Ölkəmizdə dayaq-hərəkət sistemi, dəri, revmatizm və digər xəstəliklərin müalicəsində Naftalan neftindən sanatoriya-kurort müəssisələrində, Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunda istifadə olunur. Həmin müəssisələrdə müalicəvi prosedurlar nativ Naftalan vanna qəbulu və yaxma şəklində həyata keçirilir.

«Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra digər təbii ehtiyatlarla yanaşı, «müalicəvi Naftalan nefti» təbii müalicəvi ehtiyat kimi müəyyən edilib, bu sahədə tənzimləmənin əsas istiqamətləri qanunvericiliklə tənzimlənib. Eyni zamanda, təbii müalicə ehtiyatlarından istifadə hüququ və müalicə ehtiyatlarının işlənməsi və insan orqanizminə təsirinin xüsusiyyətləri Tibbi Bərpa İnstitutu tərəfindən elmi tədqiqatlar, çoxillik təcrübələr nəzərə alınmaqla müəyyən edilib.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı ilə «Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi Naftalanın inkişafında keyfiyyətcə yeni istiqamətə - ardıcıl olaraq özəl müalicə mərkəzlərinin yaranmasına, göstərilən xidmətlərin daha yüksək səviyyəyə çatdırılmasına səbəb olub, Naftalan nefti ilə aparılan müalicə və digər prosedurlar Azərbaycanda sağlamlıq və tibbi turizmin əsas aparıcı amilinə çevrilib, ölkəmizdə tibbi-müalicəvi turizmin inkişafına məhz Naftalanda start verilib.

Sənəddə bildirilir ki, Səhiyyə Nazirliyinin müvafiq laboratoriyalarında hazırda istehsal edilən və dövriyyədə olan Naftalan neftindən alınan rafinə olunmuş Naftalan yağı, Naftalan neftinin naften karbohidrogenləri, qatransızlaşdırılmış Naftalan nefti əsasında hazırlanan kosmetik məhsullarda və yuyucu vasitələrdə fiziki-kimyəvi, toksiki elementlərin miqdarının təyini, radioloji və mikrobioloji müayinələr aparılmaqla gigiyenik sertifikatlar və toksikoloji gigiyena rəyləri verilməkdədir. Həmçinin bu məhsuldan hazırlanan dərman vasitələri «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınıb və hazırda aptek təşkilatlarında satışı həyata keçirilir. Son dövrlərdə farmakologiya və biotexnologiya sahələrində Naftalan nefti və ondan alınan aktiv komponentlərin səmərəli istifadəsində yeni yanaşmalar meydana çıxıb. Həmin yanaşmaların öyrənilməsi və tətbiqi Naftalan neftinin dünya bazarında tanıdılmasına müsbət təsir göstərəcək.

Tədbirlər Proqramında hədəf göstəricilər, Proqramın məqsədləri, prioritet istiqamətləri və maliyyələşdirmə mexanizmləri geniş şərh olunur.

Sənəd Tədbirlər Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planını da ehtiva edir.

«Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin elmi tədqiqatlar və klinik sınaqlar aparılmaqla öyrənilməsi» adlanan 1-ci prioritet üzrə «Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin müəyyən edilməsi məqsədilə elmi tədqiqatların və klinik sınaqların aparılması üçün təşkilati və texniki tədbirlərin görülməsi», «Naftalan neftinin və ondan hazırlanan preparatların elmi tədqiqatlarının və klinik sınaqlarının aparılması», «Naftalan neftinin tibbi araşdırması və elmi tədqiqatın aparılması üçün Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun mövcud laboratoriyasının işinin təkmilləşdirilməsi» və «Naftalan neftinin müalicəvi təsiri barədə aparılan tibbi araşdırmaların, elmi tədqiqatların nəticələrinin müvafiq dövlət informasiya ehtiyatında toplanması» bəndlərinin əsas icraçı orqanı olaraq Səhiyyə Nazirliyi müəyyən edilib. Həmin prioritetin «Klinik sınaqlarda Naftalan neftinin (zərərli komponentlərdən təmizlənmiş fraksiyasının) tətbiqi, o cümlədən nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi» bəndinin isə əsas icraçısı Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi isə digər icraçılardan biridir.

«Aparılmış tibbi araşdırmalar və elmi tədqiqatlar, klinik sınaqlar nəticəsində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi istifadəsi, göstəriş və əks-göstərişlərin müəyyən edilməsi, həmin preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması» adlanan 2-ci prioritet üzrə Səhiyyə Nazirliyi «Naftalan neftinin və ondan hazırlanan preparatların göstəriş və əks-göstərişlərinin müəyyən edilməsi, müalicəvi istifadəsi ilə bağlı klinik protokolların və metodiki tövsiyələrin hazırlanması» bəndinin əsas icraçı qurumu, «Naftalan neftindən hazırlanan preparatlara dair tələblərin texniki normativ hüquqi aktlarla müəyyən olunması» bəndinin isə digər icraçılarından biri olaraq təyin edilib.

Tədbirlər Planının 3-cü prioriteti «Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olmasının müəyyən edilməsi məsələsinin qanunvericiliklə tənzimlənməsi» adlanır. Bu barədə təsdiqedici sənədlərin verilməsi ilə bağlı normativ hüquqi bazanın yaradılması da əsas icraçı olaraq Səhiyyə Nazirliyinə tapşırılıb.

Nazirlik həmçinin «Sanatoriya-kurort müəssisələrinə paylanılan Naftalan neftinin mövcud sanitariya norma və qaydalarına, gigiyena normativlərinə əməl edilməsinə nəzarət, tərkibindəki zərərli komponentlərdən təmizlənərkən ətraf mühitin təhlükəsizliyinin qorunması» adlanan 4-cü prioritetin «Naftalan neftinin sanitariya norma və qaydalarına, gigiyena normativlərinə uyğun istifadəsinə tibbi nəzarətin həyata keçirilməsi» bəndinin əsas icraçısı, «Naftalan neftinin tərkibindəki zərərli komponentlərdən təmizlənməsi zamanı ətraf mühitin təhlükəsizliyinin qorunmasının təmin edilməsi» bəndinin digər icraçılarından biridir.

«Kadr hazırlığı» adlanan 5-ci prioritet Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadə edən tibb və sanatoriya-kurort müəssisələrində, o cümlədən Naftalan Kurortunda çalışan tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsini nəzərdə tutur. Bu bəndin də icrası əsas icraçı olaraq Səhiyyə Nazirliyinə həvalə edilib.

Proqramın sonuncu prioritet istiqaməti Naftalan neftinin və ondan hazırlanan preparatların beynəlxalq səviyyədə tanıdılmasıdır. Bu prioritet üzrə «Aparılmış klinik sınaqların nəticələrinin milli və beynəlxalq səviyyədə tanıdılması və təbliği» əsas icraçı kimi Səhiyyə Nazirliyinin məsuliyyətindədir. prioritetin digər bəndlərindən birində - «Naftalan neftinə və ondan hazırlanan preparatlara dair əqli mülkiyyət hüquqlarının qorunmasının təmin olunması» bəndində Səhiyyə Nazirliyi digər icraçılardan biri kimi müəyyən edilib.

Bakıda yeni Sümük iliyi transplantasiyası mərkəzi açılıb

Liv Bona Dea Hospitalında Sümük iliyi transplantasiyası mərkəzinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev iştirak ediblər.

Leyla Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun himayəsi altında xəstəxanada müalicə alan azyaşlıya baş çəkib, onun səhhəti ilə maraqlanıb, hədiyyə təqdim edib.

Sonra Sümük iliyi transplantasiyası mərkəzinin açılışı olub.

Yeni mərkəz həm böyüklər, həm də uşaqlar üçün sümük iliyi köçürmələrini həyata keçirəcək. Məlumat verilib ki, mərkəzdə 6 xüsusi izolyasiya olunmuş palata fəaliyyət göstərir. Həmin infrastruktur illik 80 xəstənin qəbuluna və müalicəsinə imkan yaradır.

Qeyd olunub ki, hazırda xəstəxananın tərkibində 8 çarpayılıq Hematologiya şöbəsi də xəstələrin ixtiyarındadır. Şöbədəki bütün palatalar müasir HEPA filtrasiyalı pozitiv təzyiq sistemi ilə təchiz olunub ki, bu da xəstələrin infeksiyalardan maksimum qorunmasını təmin edir. Kimyaterapiya preparatlarının hazırlanması biotəhlükəsizlik kabinlərində, hüceyrə toplanması isə müstəqil aferez bölməsində aparılır.

Eyni zamanda, Qan bankı eritrosit, trombosit, plazma və digər komponentlərin hazırlanması, o cümlədən qranulosit suspenziyasının əldə olunması imkanına malikdir. İlik köçürülmüş xəstələrin təhlükəsizliyi üçün şüalanma və filtrləmə prosedurları mütəmadi olaraq tətbiq edilir.

Qeyd edək ki, Sümük iliyi transplantasiyası mərkəzi Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli Qərarı ilə təsdiq edilmiş «Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı»nda dəyişiklik edilməsi haqqında Qərara əsasən verilən lisenziya əsasında açılıb.

Xatırladaq ki, sümük iliyi və kök hüceyrə köçürülməsi müxtəlif hematoloji və onkoloji xəstəliklərin müalicəsində tətbiq olunan müasir və effektiv tibbi prosedurdur. Kök hüceyrələr xəstənin özündən (avtoloji) və ya donorundan (allogenik) əldə edilərək, yüksək dozalı kimyaterapiyadan sonra orqanizmə köçürülür. Məqsəd xəstə sümük iliyini sağlam hüceyrələrlə əvəz etmək və qan yaradıcılığını bərpa etməkdir.

Azərbaycanla Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

Azərbaycanın səhiyyə naziri Teymur Musayev Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün ilə görüşüb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Teymur Musayev ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əlaqələrin, dostluq və qardaşlıq münasibətlərinin dərin tarixi köklərə əsaslandığını diqqətə çatdırıb: «Azərbaycan ilə Türkiyə arasında etimada, qarşılıqlı hörmətə, dostluq və qardaşlığa əsaslanan tərəfdaşlıq özünün ən yüksək mərhələsindədir».

Müasir Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən səhiyyə qurumlarımız arasında rəsmi münasibətlərin qurulmasını qeyd edən nazir bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də qardaş ölkə ilə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb: «Ankarada keçirilən XI Türk Tibb Dünyası Qurultayında Azərbaycanın nümayəndə heyəti geniş tərkibdə iştirak edib. Belə beynəlxalq platformalar təkcə təcrübə mübadiləsi üçün deyil, həm də gələcəkdə ortaq prioritetlərimizi müəyyən etmək baxımından əvəzsizdir».

Teymur Musayev səhiyyə sisteminin rəqəmsallaşdırılmasını Azərbaycan Səhiyyə Nazirliyinin qarşısına qoyulan prioritet məsələlərdən biri olduğunu deyib: «Süni intellekt və rəqəmsallaşmanı mənimsəyən həkimlərin yetişdirilməsi Səhiyyə Nazirliyinin qarşısında duran əsas hədəflərindən biridir».

Nazir elmi-tibbi və digər sahələrdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Birol Akgün isə vurğulayıb ki, möhkəm təməllər üzərində dayanan Azərbaycan - Türkiyə qardaşlıq münasibətləri bizim birlik və həmrəyliyimizin bariz göstəricisidir. Səfir xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolunu diqqətə çatdırıb.

XI Türk Tibb Dünyası Qurultayının mahiyyətini qeyd edən Birol Akgün bildirib ki, belə tədbirlərin keçirilməsi ölkələrimizin səhiyyə sistemlərinin yaxınlaşması, eləcə də qlobal tibbin inkişafına töhfə baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə səhiyyə sahəsində əməkdaşlıq ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Azərbaycan Səhiyyə Nazirliyində Kuba səfiri ilə görüş keçirilib

Azərbaycan Səhiyyə Nazirliyində Kubanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon ilə görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, görüş zamanı Azərbaycan ilə Kuba arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Ölkələrimiz arasında bir çox sahələrdə, o cümlədən səhiyyə sahəsində sıx əməkdaşlığın mövcudluğu qeyd edilib.

2020-ci ildə COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində kubalı mütəxəssislərdən ibarət həkim briqadalarının Azərbaycana gəlməsinin ölkələrimiz arasında, o cümlədən səhiyyə sahəsində ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

2023-cü ildə Səhiyyə Nazirliyinin nümayəndə heyətinin Kubaya səfəri zamanı iki ölkənin nazirlikləri arasında imzalanan Anlaşma Memorandumunun əhəmiyyətini vurğulayan tərəflər bu sənədin səhiyyə və tibb elminin inkişafı sahəsində ikitərəfli əlaqələrin möhkəmlənməsinə, habelə əməkdaşlıq proqramlarının həyata keçirilməsinə töhfə verdiyini qeyd ediblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səhiyyə Nazirliyinin rəhbərliyi Ulu Öndərin xatirəsini yad edib

Dekabrın 12-də müstəqil Azərbaycanın tərəqqisi və dövlətçilik ənənələrinin formalaşmasında misilsiz xidmətləri olan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü qeyd olunur.

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verib ki, bununla əlaqədar nazirliyin rəhbər şəxsləri Fəxri xiyabana gələrək Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində ölkəmizdə səhiyyə sisteminin inkişafı, tibb infrastrukturunun yenilənməsi, həmçinin yüksək ixtisaslı tibb kadrlarının hazırlanması istiqamətində mühüm addımlar atılıb. Azərbaycan səhiyyəsinin müasir mərhələdə əldə etdiyi nailiyyətlər məhz Ulu Öndərin müəyyənləşdirdiyi strateji xəttin davamı olaraq qazanılıb.

Azərbaycan ilə BMT arasında səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilib

Səhiyyə naziri Teymur Musayev Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Teymur Musayev görüşdə ölkəmizdə səhiyyə sisteminin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Nazir bildirib ki, bu sahədə aparılan islahatlar Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinə uyğun olaraq ardıcıl şəkildə həyata keçirilir. O, beynəlxalq tərəfdaşlarla, xüsusilə BMT ilə əməkdaşlığın səhiyyə sahəsində davamlı inkişafın təmin olunmasında mühüm rol oynadığını vurğulayıb.

Azərbaycanın səhiyyə naziri əməkdaşlığın bundan sonra da səmərəli olacağına əminliyini ifadə edib.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Vladanka Andreyeva BMT-nin Azərbaycanla tərəfdaşlıq və əməkdaşlığının, xüsusilə də 2026-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin həyata keçirilməsi vasitəsilə davam etdirilməsinə möhkəm sadiqliyini vurğulayıb. O, Azərbaycanın səhiyyə sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, BMT-nin gələcəkdə də Səhiyyə Nazirliyi ilə əməkdaşlığa hazır olduğunu bildirib.

Görüş zamanı səhiyyə sahəsində mövcud əməkdaşlıq əlaqələri, eləcə də gələcək perspektivlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanla BMT strukturları arasında səhiyyə sahəsində həyata keçirilən birgə layihələrin əhəmiyyəti vurğulanıb.

Azərbaycan və ÜST arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Səhiyyə Nazirliyində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin Yoluxucu xəstəliklər, ətraf mühit və sağlamlıq departamentinin direktoru Robb Batler ilə görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı ÜST-nin Avropa üzrə Regional Ofisi ilə Azərbaycan arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər həmçinin «İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası»nın genişləndirilməsini, Azərbaycanın ÜST-nin Avropa Sağlam Şəhərlər Şəbəkəsinə qoşulma perspektivlərini və digər məsələləri müzakirə ediblər.

Səhiyyə naziri Teymur Musayev qeyd edib ki, Azərbaycan ÜST ilə səmərəli əməkdaşlıq edir və ötən müddət ərzində bir sıra birgə layihələr uğurla həyata keçirilib. Teymur Musayev Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sistemində aparılan fundamental islahatlar sayəsində səhiyyə idarəçiliyi və maliyyələşməsinin müasir konsepsiyalara uyğun formalaşdırılması, qabaqcıl beynəlxalq təcrübədən istifadə, yerli və xarici tərəfdaşlarla məhsuldar əməkdaşlığın bu transformasiyaların əsasını təşkil etdiyini vurğulayıb: «Səhiyyə sahəsində aparılan mühüm işlərdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rolu da əvəzsizdir. Məhz bu diqqət və dəstək sayəsində səhiyyədə bir çox irəliləyişlərə nail olmaq mümkün olub».

Azərbaycanın iqlim və sağlamlıq arasında əlaqənin təşviqinə sadiq olduğunu qeyd edən nazir ictimai səhiyyə sahəsində qlobal səylərin birləşdirilməsinin əhəmiyyətinə diqqət çəkib: «2024-cü ilin noyabr ayında Azərbaycanın paytaxtında keçirilən COP29 çərçivəsində «İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası» yaradılıb. Eyni zamanda, Azərbaycan ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının yaradılmasını yüksək qiymətləndirir».

Öz növbəsində Robb Batler Azərbaycanın səhiyyə sahəsi, o cümlədən yoluxucu xəstəliklərə qarşı mübarizədə qazandığı uğurları qeyd edib, bu xüsusda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində ciddi nailiyyətlərin əldə olunduğunu bildirib. ÜST nümayəndəsi COP29 zamanı iqlimə yönəlmiş səhiyyə təşəbbüslərinə Azərbaycanın dəstəyini yüksək qiymətləndirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

ABŞ Azərbaycan ilə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Səhiyyə Nazirliyində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Azərbaycandakı Müvəqqəti işlər vəkili Emi Karlon ilə görüş keçirilib.

Görüş zamanı səhiyyə naziri Teymur Musayev Vaşinqtonda Azərbaycan və ABŞ arasında imzalanmış hökumətlərarası Anlaşma Memorandumunun ikitərəfli tərəfdaşlığın yeni strateji mərhələsinin təməlini qoyduğunu bildirib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, nazir Azərbaycanda şəhid ailələrinə və müharibə veteranlarına diqqət və qayğının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu söyləyib. O, səhiyyə sisteminin rəqəmsallaşdırılmasının əhəmiyyətini vurğulayaraq, bu sahədə ölkələrimiz arasında əməkdaşlığın qurulmasının əhəmiyyətini qeyd edib. Eyni zamanda, tibb təhsili, həkimlərin təkmilləşdirilməsi, səhiyyə idarəçiliyi sahəsində təcrübə mübadiləsinin vacibliyi diqqətə çatdırılıb.

Teymur Musayev həmçinin Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə tibb müəssisələrinin yaradılması sahəsində aparılan işlər barədə məlumat verib və gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Emi Karlon Prezident İlham Əliyevin tarixi səfərinin və səfər zamanı Azərbaycan və ABŞ hökumətləri arasında imzalanan Anlaşma Memorandumunun mahiyyətini xüsusi olaraq vurğulayıb.

O, Azərbaycanda şəhid ailələri və müharibə veteranlarına göstərilən qayğını yüksək qiymətləndirərək, təmsil etdiyi ölkənin bu sahədə dəstəyini əsirgəməyəcəyini diqqətə çatdırıb, ABŞ-nin Azərbaycan ilə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

«Günəşli» sağlamlıq mərkəzində müalicə və istirahət şəraiti yaxşılaşdırılıb

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən həmkarlar ittifaqı üzvlərinin əmək hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin yaradılması, əməyin təhlükəsizliyi, asudə vaxtının mənalı keçirilməsi tədbirləri ilə yanaşı, sağlamlığının qorunması və istirahətinin səmərəli təşkili istiqamətində də sistemli tədbirlər həyata keçirilir, müalicə və istirahət mərkəzlərində şərait yaxşılaşdırılır.

AZƏRTAC bildirir ki, Konfederasiyanın, digər dövlət qurumlarının nümayəndələri və Milli Məclisin deputatları AHİK-in Bakının Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən "Günəşli" sağlamlıq mərkəzində görülmüş işlərlə, yenilənmiş infrastrukturla tanış olublar.

Səhiyyə naziri Teymur Musayevin də iştirak etdiyi baxış zamanı məlumat verilib ki, «Günəşli» sağlamlıq mərkəzində şərait yaxşılaşdırılıb, mərkəz müasir tibbi avadanlıqlarla təchiz edilib. Burada müalicə kompleksi, diaqnostika mərkəzi yaradılıb. Sinir sistemi xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşan mərkəz fizioterapiya xidmətləri, müalicəvi naftalan, paranaft və mineral su vannaları təqdim edir. Burada həmçinin kedr çəlləyi, akupunktura, biopunktura, limfodrenaj, neyroson, ozonoterapiya, inhalyasiya və digər müalicə-profilaktik prosedurlar həyata keçirilir.

Sağlamlıq mərkəzinin yararsız halda olan yataq korpuslarının biri əsaslı şəkildə yenidən qurulub, şərait müasir standartlara uyğun yaxşılaşdırılıb. Burada yeni tibbi avadanlıqlarla təchiz olunmuş həkim, masaj və vanna otaqları, həmçinin fizioterapiya kabinetləri müalicə alanların xidmətindədir.

Tədbir iştirakçıları «Günəşli» sağlamlıq mərkəzində yaradılan şərait, müalicə və istirahət imkanlarını yüksək qiymətləndiriblər.

Səhiyyə Nazirliyində beynəlxalq aləmdə yüksək nüfuzlu tibb mütəxəssisləri ilə görüş keçirilib

Azərbaycanın Səhiyyə Nazirliyində baş ağrıları üzrə beynəlxalq aləmdə yüksək nüfuza malik olan aparıcı mütəxəssislərlə görüş keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Danimarka, Almaniya, Belçika və İtaliyadan olan tanınmış alimlər - Kopenhagen Universitetinin (Danimarka) nevrologiya üzrə professoru, Beynəlxalq Başağrısı Cəmiyyətinin (IHS) sabiq prezidenti professor Məsud Aşina, Essen Universitetinin (Almaniya) professoru, Avropa Başağrısı Federasiyasının (EHF) sabiq prezidenti professor Zaza Katsarava, Brüssel Universitet Xəstəxanasının (Belçika) Nevroloji klinikasının rəhbəri, EHF-nin İdarə Heyətinin üzvü professor Yan Versijpt, Sapienza Universitetinin (İtaliya) professoru, Avropa Nevrologiya Akademiyasının (EAN) Başağrısı panelinin üzvü Canluka Koppola, eləcə də miqren və baş ağrıları üzrə mütəxəssis, «Azərbaycan Miqren Mütəxəssisləri» İctimai Birliyinin həmtəsisçisi Sərxan Əmirquliyev iştirak ediblər.

Görüş zamanı başağrısı və miqrenin müasir diaqnostika və müalicə üsulları, bu sahədə beynəlxalq klinik yanaşmalar, eləcə də gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə səhiyyə naziri Teymur Musayev ölkə rəhbərliyinin səhiyyə sahəsinə, xüsusilə də ixtisaslaşmış tibbi xidmətlərin inkişafına daim xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. Bildirilib ki, son illər Azərbaycan səhiyyəsində həyata keçirilən islahatlar çərçivəsində nevrologiya sahəsi, o cümlədən baş ağrılarının diaqnostika və müalicəsi istiqamətində mühüm addımlar atılıb: «Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin müasirləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqi və əhalinin yüksəkkeyfiyyətli tibbi xidmətlə təmin olunması dövlət siyasətinin əsas prioritetlərindəndir. Bu baxımdan, beynəlxalq ekspertlərlə əməkdaşlıq bizim üçün xüsusi əhəmiyyət daşıyır».

Nazir həmçinin qeyd edib ki, belə görüşlər yerli mütəxəssislərin bilik və bacarıqlarının artırılması, elmi-tədris əlaqələrinin gücləndirilməsi və qabaqcıl müalicə protokollarının tətbiqinə töhfə verir.

Öz növbəsində qonaqlar Azərbaycanda səhiyyə sahəsində aparılan islahatları yüksək qiymətləndirərək, elmi və praktiki əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildiriblər. Diqqətə çatdırılıb ki, başağrısı (sefalgiya) cəmiyyətə əhəmiyyətli dərəcədə sosial-iqtisadi ziyan vuran və dünyada əlilliyə ən çox gətirən on səbəb sırasındadır. Baş ağrılarının düzgün müalicəsini təmin etmək üçün səhiyyə işçilərinin peşəkar hazırlığı, dəqiq diaqnoz, eləcə də həyat tərzinin dəyişdirilməsinin zəruri olduğu qeyd edilib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan və Böyük Britaniya arasında səhiyyə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Səhiyyə Nazirliyində Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Alderdaysın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Fergus Auld və Böyük Britaniyanın Biznes və Ticarət Nazirliyinin ölkə üzrə direktoru Aleksandr Tirrel də iştirak ediblər.

Səhiyyə naziri Teymur Musayev Azərbaycan - Böyük Britaniya münasibətlərinin dinamik inkişaf tendensiyasına malik olduğunu qeyd edib. O, Ümummilli Lider Heydər Əliyevin 1994-cü və 1998-ci illərdə Böyük Britaniyaya səfərlərinin ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etməsində əsas rol oynadığını bildirib. Nazir ölkələrimiz arasında bir çox sahələri əhatə edən münasibətlərin mövcud olduğunu deyib.

Prezident İlham Əliyevin vətəndaşların sağlamlığının qorunmasına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini vurğulayan Teymur Musayev deyib: «Şəhid ailələri və müharibə veteranlarına diqqət və qayğı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir. Eyni zamanda, nazirliyin Sanator-Kurort Reabilitasiya Mərkəzində veteranlarımız üçün bir çox tibbi xidmətlər göstərilir».

Nazir gələcəkdə elmi-tibbi və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu söyləyib.

Lord Con Alderdays Britaniyanın Azərbaycanla münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. Onun sözlərinə görə, iki ölkə arasındakı münasibətlər təkcə ticarət və investisiyalarla məhdudlaşmır, eyni zamanda, uzunmüddətli tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır.

Azərbaycan dövlətinin şəhid ailələri və müharibə veteranlarına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirən Lord Con Alderdays Böyük Britaniyanın bu sahədə də müvafiq dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Konstruktiv anlaşma şəraitində keçən görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyi qeyd olunub

Heydər Əliyev Mərkəzində Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) yaranmasının 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konqresin açılış mərasimi keçirilib.

Nazirliyin mətbuat xidmətindən verilən xəbərə görə, tədbir Səhiyyə Nazirliyinin dəstəyi ilə təşkil olunub və ölkəmizin diplomdan sonrakı tibb təhsilinin inkişafında mühüm rol oynayan Ə.Əliyev adına ADHTİ-nin zəngin tarixinə, elmi tədris fəaliyyətinə və müasir nailiyyətlərinə həsr edilib.

Konqresin əsas məqsədi tibb elmində yeni elmi-praktik nailiyyətlərin müzakirəsi, həkimlərin bilik və bacarıqlarının artırılması, xüsusilə gənc həkimlərin elmi inkişafına töhfə vermək olub.

Tədbirin rəsmi açılış mərasimində Səhiyyə Nazirliyinin və Milli Məclisin Səhiyyə komitəsinin rəhbər şəxsləri, eləcə də yerli və xarici ali tibb təhsili müəssisələrinin rəhbərləri, nüfuzlu alimlər və səhiyyə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İlk olaraq Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində səhiyyə naziri Teymur Musayev Prezident İlham Əliyevin konqres iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov vurğulayıb ki, ADHTİ-nin 90 illik fəaliyyəti Azərbaycanın səhiyyə tarixinin çox mühüm bir hissəsidir. Onun sözlərinə görə, institutda çalışan alimlər, həkimlər, müəllimlər Azərbaycan tibb elminin inkişafına mühüm töhfələr veriblər.

AZƏRTAC xəbər verir ki, Səhiyyə komitəsinin sədri Həkimləri Təkmilləşdirmə İnstitutunun hərtərəfli inkişafında və tanınmasında Əziz Əliyevin rolunun son dərəcə böyük olduğunu vurğulayıb: «Onun bu instituta rəhbərlik etdiyi dövrdə institutun kadr potensialı əhəmiyyətli dərəcədə gücləndirilib, elmi və praktik fəaliyyət sahəsində mühüm nailiyyətlər əldə edilib. Ümumilikdə, institut fəaliyyət göstərdiyi müddət ərzində olduqca böyük uğurlara imza atıb».

Əhliman Əmiraslanov qeyd edib ki, institutun inkişafının növbəti mühüm mərhələsi Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Bu dövrdə Ümummilli Liderin səhiyyə sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı institutdan da yan keçməyib, nəticədə, bu mərhələ institutun çiçəklənmə dövrü kimi xarakterizə olunub: «Həmçinin dünya miqyasında tanınan bir çox tibb mütəxəssisi müxtəlif dövrlərdə bu institutda fəaliyyət göstərib, təhsil alıb. Görkəmli oftalmoloq-alim Zərifə Əliyevanın da bu institutda müəyyən müddət təhsil alması və elmi fəaliyyət göstərməsi institutun nüfuzunun artmasında mühüm rol oynayıb. Bu gün isə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsinə göstərdikləri diqqət və qayğı hər kəsin gözü önündədir».

Konqresin sədri, ADHTİ-nin rektoru Nazim Pənahov «Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşlarının «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamının institutun fəaliyyətinə verilən yüksək qiymət olduğunu qeyd edib. Rektor bu yüksək qiymətə görə institutun kollektivi adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Öz çıxışında Nazim Pənahov institutun yaradılması tarixindən və keçdiyi şərəfli yol-institut inkişaf edərək, o dövrün tanınmış ali təhsil ocağına çevrilib.

Rektor bildirib ki, Həkimləri Təkmilləşdirmə İnstitutu 90 illik fəaliyyəti ilə Azərbaycanın səhiyyə tarixinin mühüm və ayrılmaz hissəsinə çevrilib. Mürəkkəb tarixi şəraitdə əsası qoyulan bu elm və təhsil ocağı ötən onilliklər ərzində təkcə ali təhsil müəssisəsi deyil, eyni zamanda, tibb elminin inkişafına və cəmiyyətin sağlam gələcəyinə xidmət edən strateji mərkəz kimi formalaşıb. Burada çalışan alim və həkimlərin fəaliyyəti nəticəsində tibb təhsilində və davamlı peşəkar inkişaf sahəsində bir çox ilk addımlar məhz bu institutdan başlanıb.

Rektor Beynəlxalq Elmi-Praktik Konqresdə müxtəlif ölkələrdən iştirak edən qonaqların institutun artan beynəlxalq nüfuzunun göstəricisi olduğunu deyib: «Biz qlobal elmi əməkdaşlığa və beynəlxalq inteqrasiyaya xüsusi önəm verir, bu istiqamətdə tərəfdaşlıqlarımızın daha da genişlənəcəyinə inanırıq».

Tədbirdə institutun tarixindən və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Sonra Türkiyənin İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar, Özbəkistandan Səmərqənd Dövlət Tibb İnstitutunun rektoru Jasur Rizayev, Rusiya Fasiləsiz Peşəkar Tibbi Təhsil Akademiyasının prorektoru Aleksey Çerepov və digərləri çıxış edərək, ADHTİ ilə bağlı xatirələrini bölüşüblər, institutun kollektivini yubiley münasibətilə təbrik ediblər. Eyni zamanda, ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı, əhalinin sağlamlığının mühafizəsi istiqamətində gələcək fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıblar.

İki gün davam edən konqres çərçivəsində tibbin müxtəlif sahələrinin aktual problemlərinə həsr olunmuş 2 plenar iclas və 5 elmi panel təşkil olunub. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Böyük Britaniya, Özbəkistan, Rusiya, Gürcüstan, İran, Danimarka, Almaniya və digər ölkələrdən olan mütəxəssislər elmi məruzələrlə çıxış edib, tibb elminin son nailiyyətləri və müasir yanaşmalar ətrafında geniş müzakirələr aparıblar.

Qeyd edək ki, tədbir Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən 10 Davamlı Tibbi Təhsil krediti ilə akkreditasiya edilib.

Azərbaycan və Latviyanın Səhiyyə nazirlikləri arasında Əməkdaşlıq Sazişi imzalanıb

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviyanın paytaxtı Riqa şəhərində səfərdə olub.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nümayəndə heyəti ilk olaraq Azərbaycanın Latviyadakı səfirliyində Ulu Öndər Heydər Əliyevin büstünün önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad edib.

Səfər çərçivəsində iki ölkə arasında səhiyyə sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə bir sıra görüşlər keçirilib. Səhiyyə naziri Teymur Musayev və Latviyanın səhiyyə naziri Hossam Abu Meri arasında ikitərəfli görüş baş tutub. Görüşdə Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov da iştirak edib.

Görüş zamanı iki ölkənin səhiyyə sistemlərinin inkişafı, rəqəmsal səhiyyə, tibbi kadr hazırlığı, laborator xidmətlər və əczaçılıq sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sistemində genişmiqyaslı islahatların aparıldığını vurğulayan Teymur Musayev bildirib ki, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsinə və qabaqcıl təcrübələrin tətbiqinə ölkəmiz xüsusi önəm verir. Nazir Azərbaycan - Latviya münasibətlərinin dostluq və qarşılıqlı etimada əsaslandığını, bu əlaqələrin dinamik inkişafının sektorlararası əməkdaşlığa geniş imkanlar yaratdığını qeyd edib.

Öz növbəsində Hossam Abu Meri iki ölkə arasında yüksələn siyasi dialoqun əməkdaşlıq üçün mühüm platforma olduğunu bildirib, Latviya - Azərbaycan əlaqələrinin səhiyyə sisteminin inkişafına da töhfə verəcəyini vurğulayıb.

Səfər çərçivəsində Azərbaycan və Latviya Səhiyyə nazirlikləri arasında səhiyyə və tibb elmi sahəsində Əməkdaşlıq Sazişi imzalanıb.

Sənəd səhiyyə sahəsində təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, tibb təhsili, klinik tədqiqatlar, səhiyyə idarəçiliyi və digər istiqamətlər üzrə əməkdaşlığı nəzərdə tutur. İmzalanmış saziş iki ölkə arasında səhiyyə sahəsində strateji tərəfdaşlığın inkişafına mühüm töhfə verəcək.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Latviyanın kənd təsərrüfatı naziri, Latviya - Azərbaycan iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın həmsədri Armands Krause arasında işgüzar görüş keçirilib.

Səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Latviyanın paytaxtı Riqa şəhərinə səfəri zamanı qonaqlar Latviyanın aparıcı tibb müəssisələri, elmi tədqiqat mərkəzləri və ali təhsil ocaqlarının fəaliyyəti ilə də tanış olublar.

Azərbaycan nümayəndə heyəti Riqa Beynəlxalq İqtisadiyyat və Biznes İdarəçiliyi Məktəbinin (RISEBA) rəhbərliyi ilə görüşüb. Qonaqlara məlumat verilib ki, 1992-ci ildə təsis edilən RISEBA Latviyanın ən böyük özəl ali təhsil müəssisələrindən biridir. Bundan əlavə, RISEBA dünyanın müxtəlif universitetləri və təşkilatları ilə fəal əməkdaşlıq edərək, tələbələrə peşəkar məqsədlərinə uyğun istiqamət seçməyə imkan verən müxtəlif təhsil proqramlarını təklif edir.

Riqa Şərq Universitet Xəstəxanasının Təcili yardım və pasiyent qəbulu klinikası, eləcə də Travmatologiya və Ortopediya Xəstəxanasına da səfər baş tutub. Xəstəxanaların infrastrukturu, innovativ tibbi texnologiyaların tətbiqi və travmatologiya, ortopediya, təcili yardım xidmətləri üzrə təcrübə mübadiləsi imkanları müzakirə edilib.

Sonra nümayəndə heyəti Latviyanın «Grindeks» aparıcı əczaçılıq şirkətinin fəaliyyəti ilə tanış olub. Farmasevtik istehsal prosesi, keyfiyyətə nəzarət, dərman təhlükəsizliyi və yeni preparatların hazırlanması sahəsində əməkdaşlıq perspektivləri qiymətləndirilib.

Riqa Stradinş Universitetinin Tibb Təhsil Texnologiyaları Mərkəzi, Latviya Universitetinin Tibb və Həyat Elmləri fakültəsi, eləcə də Uşaq Klinik Universitet Xəstəxanasında görüşlər keçirilib. Tibbi təhsilin modernləşdirilməsi, simulyasiya mərkəzlərində birgə təlimlər, pediatriya sahəsində elmi və klinik əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti E.Qulbis laboratoriyasında Latviya Tibb İşəgötürənləri Assosiasiyası (VADDA) rəhbərliyi ilə də görüşüb. Görüşdə laborator xidmətlərin təşkili, diaqnostik imkanların genişləndirilməsi və müasir laborator standartların tətbiqi üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

Səfər Azərbaycan və Latviya arasında tibb elmi, klinik təcrübə və səhiyyə xidmətləri sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından mühüm rol oynayacaq.

Miqren və digər baş ağrıları milli səhiyyə prioritetləri sırasında yer alır

Bakıda «Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyinin 1-ci illik Beynəlxalq Konfransı» keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev baş ağrılarının idarə olunmasının tibb tarixinin inkişaf yolunu tam əks etdirdiyini diqqətə çatdırıb: «Min illər əvvəl başağrısı tibbi hal kimi deyil, mistik bir hadisə kimi hesab edilirdisə, bu gün əhəmiyyətli ictimai səhiyyə məsələsi kimi qiymətləndirilməlidir. Onun geniş yayılması, yüksək əlillik yükü, sosial iqtisadi təsirləri miqrenin müasir səhiyyə siyasətinin diqqət mərkəzinə gətirir. Miqrenin ictimai səhiyyə problemi kimi qəbul edilməsi bir neçə strateji yanaşmanı zəruri edir. İlk növbədə, miqren və digər baş ağrıları milli səhiyyə prioritetləri sırasında yer alır».

Səhiyyə Nazirliyində bu sahədə dünyanın bir sıra qabaqcıl mütəxəssisləri ilə görüş keçirildiyini qeyd edən nazir bildirib ki, ölkəmizdə miqrenin idarə olunmasına dair yol xəritəsinin hazırlanması barədə ilkin müzakirələr aparılıb: «İlkin mərhələdə ölkəmizdə dünya praktikasına əsaslanan, ən müasir müalicə və diaqnostika metodlarını özündə əks etdirən milli protokolun qəbul edilməsi əsas götürülüb. Bundan sonra müasir müalicə üsullarının əlçatanlığını təmin etmək məqsədilə ən qabaqcıl dərman vasitələri və digər üsulların Azərbaycanda sürətli şəkildə qeydiyyatdan keçirilməsi və əhalinin bu müalicələrə əlçatanlığını təmin etmək mövzusu müzakirə olunub. Növbəti mərhələdə icbari tibbi sığortanın xidmətlər zərfinə xroniki miqrenin idarə olunmasının da daxil edilməsi məsələsi gündəmə gəlir. İnanıram ki, növbəti bir il - il yarım ərzində bu istiqamətdə ciddi irəliləyişlərə nail olacağıq. Eyni zamanda, səhiyyə işçilərinin bilik və bacarıqlarının artırılması xüsusi əhəmiyyət kəsb edir. İlkin səhiyyə xidmətində çalışan tibb işçiləri miqrenin erkən əlamətlərini tanımalı, düzgün yönləndirmə və ilkin müalicə aparmaq imkanına malik olmalıdır. Həmin yanaşma ixtisaslaşmış xidmətlərə düşən yükü də xeyli azaldır».

Nazir əlavə edib ki, müasir dövrdə rəqəmsal səhiyyə həlləri və sağlamlıq məlumat sistemləri də miqrenin ictimai səhiyyə səviyyəsində idarə olunmasına yeni imkanlar yaradır. Epidemioloji məlumatların toplanması, xəstə yükünün ölçülməsi və xidmətlərin effektivliyinin qiymətləndirilməsi sübuta əsaslanan siyasi qərarların qəbuluna imkan verir.

Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyinin təsisçisi və İdarə Heyətinin üzvü professor Məsud Aşina, Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli, Səhiyyə Nazirliyi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Pənahov, «YAŞAT» Fondunun rəhbəri Elvin Hüseynov həmin patologiyanın təkcə tibbi deyil, sosial-iqtisadi cəhətdən ciddi problem olduğunu, insanların həyat keyfiyyətinə və gündəlik fəaliyyətinə təsir göstərdiyini qeyd ediblər. Bildirilib ki, konfransda aparılan müzakirələr, müxtəlif yanaşmalar, bilik və təcrübə mübadilələri xəstəliyin daha effektiv idarə olunması və müalicə edilməsi baxımından olduqca əhəmiyyətlidir. Konfransın əməkdaşlığın gücləndməsinə və mühüm elmi ideyaların paylaşılmasına imkan yaratdığını qeyd edən çıxışçılar tədbirin gənc həkim, mütəxəssis, rezident və tələbələr üçün çox məhsuldar və faydalı olacağına əminliklərini ifadə ediblər.

Konfrans sessiyalarla davam edib.

İtaliya Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlıqda maraqlıdır

Səhiyyə Nazirliyində İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançesko ilə görüş keçirilib.

Nazirliyin mətbuat xidməti xəbər verir ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfərinin iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsində xüsusi rolunu vurğulayıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın humanitar və mədəniyyət sahələrində təşəbbüslərinin əməkdaşlığın genişlənməsinə verdiyi töhfələri qeyd edib.

Teymur Musayev iki ölkə arasında səhiyyə sahəsində əlaqələrin daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayaraq, İtaliya tərəfi ilə praktiki əməkdaşlığa hazır olduqlarını bildirib. Çıxışının sonunda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Luka Di Canfrançesko ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələrin qurulduğunu və bu müddət ərzində İtaliya və Azərbaycan dövlətləri arasında əməkdaşlığın müsbət dinamika ilə inkişaf etdiyini diqqətə çatdırıb. Səfirin sözlərinə görə, ötən illər ərzində Azərbaycan - İtaliya münasibətləri böyük yol keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İtaliyanın Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında da maraqlı olduğu bildirilib.

Görüşdə Azərbaycan və İtaliya arasında səhiyyə sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Səhiyyə sistemlərinin rəqəmsallaşdırılmasının tətbiqi üzrə əməkdaşlığın qurulması, əczaçılıq, tibb təhsili, həkimlərin təkmilləşdirilməsi, səhiyyə idarəçiliyi sahəsində təcrübə mübadiləsinin vacibliyi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görkəmli alimə ehtiram

Professor Qəhrəman Qəhrəmanovun 100 illik yubileyi qeyd olunub

Azərbaycan Tibb Universitetində (ATU) Əməkdar elm xadimi, «Şöhrət» ordenli tibb elmləri doktoru professor Qəhrəman Mehdiqulu oğlu Qəhrəmanovun anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, ATU-nun rektoru, professor Gəray Gəraybəyli ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış mühüm bir ənənə olduğunu deyib: «Həmin ənənəyə əsasən, xalqımızın, elmimizin, təhsilimizin və səhiyyəmizin inkişafında əvəzsiz xidmətləri olan şəxsiyyətlərin xatirəsi daim ehtiramla yad edilir, yubileyləri yüksək səviyyədə keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ənənə Azərbaycan Tibb Universitetində də ardıcıl şəkildə qorunur və yaşadılır».

Professor Gəray Gəraybəyli Qəhrəman Qəhrəmanovun həyat və fəaliyyətinə nəzər salıb, onu Azərbaycan tibb elminin korifeylərindən biri kimi səciyyələndirib. Qeyd edib ki, neyrofiziologiya və neyrokimya məktəbinin yaradıcısı olan Qəhrəman Qəhrəmanov bütün şərəfli ömrünü tibb elminin inkişafına, elmi həqiqətlərin üzə çıxarılmasına və gənc nəslin yetişdirilməsinə həsr edib. Alimin saf əqidəli, yüksək mənəvi keyfiyyətlərə və zəngin intellektə malik örnək bir ziyalı olduğunu deyən rektor onun gənclik illərində Bahadur Eyvazov, Kamil Balakişiyev, Fuad Əfəndiyev, Mustafa Topçubaşov, Zülfüqar Məmmədov, Abdulla Qarayev və Əhəd Həsənov kimi görkəmli alimlərin elmi və mənəvi təsiri ilə elm yolunu seçdiyini, ömrünü fiziologiya elminin inkişafına həsr etdiyini, bu seçimin Azərbaycan tibb elmi üçün böyük qazanc olduğunu söyləyib: «Uzun illər Normal fiziologiya kafedrasında çalışan alimin elmi-pedaqoji fəaliyyəti daim yüksək qiymətləndirilib. O, «Səhiyyə əlaçısı» döş nişanı, «Əməkdar elm xadimi» fəxri adı, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, bir sıra orden və medallar, o cümlədən müstəqil Azərbaycanın ali təltiflərindən olan «Şöhrət» ordeni ilə təltif edilib».

Professor Qəhrəman Qəhrəmanovun çoxsaylı elmi məqalələrin, monoqrafiyaların və dərsliklərin müəllifi olduğunu xatırladan rektor, xüsusilə, onun 2001-ci ildə nəşr edilən «Beynin və ürəyin sirlərinə pəncərələr» kitabının bu gün də fiziologiya sahəsində dəyərli mənbə kimi istifadə olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Qəhrəman Qəhrəmanov yalnız alim deyil, həm də geniş dünyagörüşə malik ensiklopedik bilikli bir ziyalı idi: «O, mühazirələrində tibb və fiziologiyanın ən son nailiyyətlərini tarix, fəlsəfə, poeziya və ədəbiyyatla ustalıqla əlaqələndirir, Nizami, Nəsimi, Tusi, Əl-Fərabi, İbn Sina kimi dahilərin fikirlərinə müraciət edərək tələbələrinə təkcə bilik deyil, həm də həyat fəlsəfəsi aşılayırdı».

Konfransda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov professorun böyük elmi məktəb yaratdığını qeyd edib: "Hər bir tədqiqatçının, böyük alimin fəaliyyətinin zirvəsi onun yaratdığı elmi məktəbdir. Qəhrəman Qəhrəmanov da, sözün əsl mənasında, böyük bir elmi məktəb yaradıb və hesab edirəm ki, belə böyük alimlərimizin, mütəxəssislərimizin yubileylərinin keçirilməsi vacibdir. Çünki gənc nəsil elmimizin, səhiyyəmizin, təhsilimizin keçmişini yaxşı bilməlidir. Bütün ömrünü öz xalqına, Vətəninə həsr etmiş insanların ömrü o xalqların ömrü qədərdir. Professor Qəhrəman Qəhrəmanov da məhz belə şəxsiyyətlərdəndir».

Səhiyyə nazirinin müavini Nadir Zeynalov isə Qəhrəman Qəhrəmanovun tələbəsi kimi xatirələrini bölüşərək, onun mürəkkəb fiziologiya elmini sadə və anlaşılan dildə izah etmək bacarığını xüsusi qeyd edib: "Qəhrəman müəllim bizə çox mürəkkəb bir elm olan İnsan fiziologiyası fənni üzrə dərs deyirdi. Əslində, fiziologiya insanın həyatıdır. Bizim fiziki və psixi sağlamlığımız fiziologiyadır. Bu elmin müasir nailiyyətlərinə baxmayaraq, hələ də qaranlıq məqamları qalır və hər il yeni kəşflər çıxır. Qəhrəman müəllim mürəkkəb elmi, insan fiziologiyasını biz tələbələrə asan, bizim başa düşə biləcəyimiz dildə izah edirdi və mühazirələri çox maraqlı keçirdi. Qəhrəman müəllim öz mühazirələrində, təbii ki, fiziologiyadan, elmi məsələlərdən, öz eksperimentlərindən, xüsusilə də elmi rəhbəri Anokin və onun təcrübəsindən maraqlı hadisələr danışardı. O vaxt internet yox idi, Qəhrəman müəllimin mühazirələri bizə fantastik məlumatlar kimi gəlirdi. Amma mühazirələr zamanı həm də ədəbiyyatdan, Azərbaycan tarixindən danışır, şeirlərdən misralar deyir və bunu fiziologiya ilə uzlaşdırırdı. Qəhrəman müəllimin əziz xatirəsinə belə bir möhtəşəm konfransın təşkil olunmasına görə universitetin rəhbərliyinə də təşəkkür edirəm».

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, ATU-nun Normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədov görkəmli alimin həyat və elmi irsinə həsr olunmuş geniş məruzə ilə çıxış edib.

Professorlar İbadulla Ağayev və Paşa Qəlbinur xatirə çıxışlarında Qəhrəman Qəhrəmanovun Azərbaycan tibb elminə verdiyi əvəzsiz töhfələrdən danışıblar.

Konfrans zamanı professorun həyat və elmi fəaliyyətinə həsr olunmuş sənədli filmin təqdimatı da keçirilib.

Qəhrəman Qəhrəmanovun ailə üzvləri adından çıxış edən oğlu, professor Aydın Qəhrəmanov atasının xatirəsinə göstərilən bu ehtirama görə universitetin rəhbərliyinə və tədbir iştirakçılarına dərin minnətdarlığını bildirib.

Elmi-praktik konfransın işi sessiyalarla davam edib.

Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib

Səhiyyə Nazirliyinin dəstəyi ilə Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən 1 Dekabr - Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr olunmuş konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalovun sözlərinə görə, QİÇS təhlükəli, ölümlə nəticələnə bilən pandemik infeksion xəstəlikdir. Hazırda dünyada 38-39 milyon insan İİV-lə yaşayır. Dünyada elə bir ölkə yoxdur ki, orada İİV virusu olmasın.

Nazir müavini bildirib ki, xəstəliyin aşkarlandığı 40 il ərzində onun diaqnostikası, müalicəsi və profilaktikasında böyük nailiyyətlər əldə olunub: «Əgər əvvəllər QİÇS-in effektiv müalicəsi yox idisə, diaqnostikası bahalı və uzun müddət tələb edən prosedur idisə, o zamanlar İİV aşkarlanan şəxs ölümə məhkum olunurdusa, bu gün həmin virusun sürətli aşkarlanmasının ucuz müayinə üsulları mövcuddur, bunun əsasında skrininq müayinələr aparılır. Bundan başqa, QİÇS-in effektiv müalicə üsulu var. İİV olan şəxslərdə müasir müalicə üsulları, dərmanlarla həmin virusun orqanizmdə səviyyəsini çox aşağıya endirmək mümkündür. Nəticədə bu virus həmin şəxsdə hətta müayinə üsulları ilə də tapılmır. Həmçinin başqa insan üçün yoluxduruculuq qabiliyyəti olmur. Bu, böyük bir nailiyyətdir. Lakin hələlik QİÇS-in sağalma ilə nəticələnən müalicəsi yoxdur».

«Ölkədə İİVQİÇS-lə bağlı cari vəziyyət və qarşıda duran hədəflər» barədə təqdimatla çıxış edən Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov bildirib ki, İİV/QİÇS-ə qarşı aparılan mübarizə tədbirlərinə baxmayaraq, onun dünyada, xüsusən də Şərqi Avropa və Mərkəzi Asiya regionunda yayılması davam etməkdədir. Azərbaycanda həmin infeksiya əsasən yoluxmaya yüksək risk qrupu təşkil edən şəxslər arasında yayılıb. Ölkəmiz Şərqi Avropa və Mərkəzi Asiya regionunda xəstəliyin yayılma göstəricilərinə görə aşağı olan ölkələrdəndir.

«Bu ilin ötən dövrü ərzində İİV-ə yeni yoluxma hallarının sayı 1130 nəfər təşkil edib ki, onlardan 1109 nəfəri (98 faizi) Azərbaycan vətəndaşları olub. İİV-ə yoluxmuş Azərbaycan vətəndaşlarının 74,3 faizini kişilər, 25,7 faizini isə qadınlar təşkil edib. Həmin dövr ərzində 71 nəfər QİÇS mərhələsinə keçib, 20 nəfər isə İİV infeksiyasından dünyasını dəyişib.

Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 2025-ci ilin noyabr ayının sonuna kimi Respublika QİÇS-lə Mübarizə Mərkəzində 11 413 Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 71,6 faizini kişilər, 28,4 faizini qadınlar təşkil edir. Ümumilikdə, həmin dövr ərzində İİV infeksiyasından dünyasını dəyişənlərin sayı isə 1540 nəfər olub. Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən qeydiyyata götürülən ölkə vətəndaşlarından 28,2 faizində İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində, 60,3 faizində heteroseksual, 6,3 faizində homoseksual kontakt nəticəsində olub, 1,3 faizində anadan uşağa keçib, 3,9 faizində isə yoluxma yolu müəyyən edilməyib», - deyə F.Məmmədov qeyd edib.

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva hazırda İİVQİÇS-lə bağlı ən böyük problemin stiqma və diskriminasiya olduğunu diqqətə çatdırıb: «Stiqma və diskriminasiya ilə mübarizədə maariflənmənin rolu çox böyükdür. Tək əhalinin deyil, tibb müəssisələrində tibb işçiləri, hətta həkimlər arasında da İİVQİÇS-lə bağlı ciddi maarifləndirməyə ehtiyac var. Bu istiqamətdə QİÇS-lə Mübarizə Mərkəzi ilə əməkdaşlıq edirik. Biz TƏBİB olaraq tibb müəssisələrində infeksion nəzarətin qurulması istiqamətində son beş il ərzində çox böyük işlər görmüşük. İnfeksion nəzarət sisteminin qurulması təkcə İİV deyil, digər infeksion xəstəliklərin də yayılmasının qarşısının alınmasında çox böyük bir sistemdir».

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Soltan Məmmədov, Müşfiq Məmmədli və Pərvanə Vəliyeva səhiyyə sahəsinə ayrılan büdcə, QİÇS-lə bağlı qanunvericilik, xəstəliklə mübarizədə aparılan düzgün strategiyadan bəhs edib, beynəlxalq təcrübə və tövsiyələrə əsaslanan tədbirlərin, görülən işlərin öz müsbət nəticəsini verdiyini diqqətə çatdırıblar. Bildirilib ki, region ölkələrinə bir nümunə olan Azərbaycanda QİÇS-lə bağlı epidemioloji vəziyyət başqa ölkələrdən daha yaxşıdır.

Daha sonra Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova İİV infeksiyası ilə bağlı mobil tətbiqin təqdimatını edib. AIDS-lə Mübarizə İctimai Birliyinin sədri Nofəl Şərifovun «Azərbaycanda vətəndaş cəmiyyəti təşkilatlarının İİV/QİÇS-lə mübarizədə rolu» mövzusunda məruzəsi dinlənilib.

Tədbir mövzular ətrafında müzakirələrlə davam edib.

Korrupsiya ilə mübarizə üzrə təlim keçirildi

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya»nın icrası üzrə Fəaliyyət Planına uyğun olaraq, Səhiyyə Nazirliyinin əməkdaşları üçün Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən «Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri» mövzusunda təlim təşkil edilib.

DİM-in nümayəndəsi keçirdiyi təlim zamanı iştirakçılara korrupsiya hüquqpozmalarına dair mühüm məsələlər, korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübə, Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizədə əldə edilmiş nailiyyətlər, eləcə də dövlət qulluqçularının etik davranış qaydalarının əhəmiyyəti, etik davranış qaydalarının tətbiqi məsələləri barədə məlumat verilib.

Təlimin sonunda korrupsiyaya qarşı mübarizə və dövlət qulluğunda etik davranış qaydaları mövzusunda təlim iştirakçılarının sualları cavablandırılıb.

Səhiyyə Nazirliyi mövsümi xəstəliklərlə bağlı əhaliyə müraciət edib

Son günlərdə havaların soyuması ilə əlaqədar olaraq ölkə ərazisində kəskin respirator virus infeksiyalarının, o cümlədən qripin yayılmasında mövsümi artım müşahidə olunur. Hava şəraitinin dəyişməsi, insanların qapalı məkanlarda daha çox vaxt keçirməsi və immun sisteminin zəifləməsi bu infeksiyaların geniş yayılmasına şərait yaradır.

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, bu barədə Nazirliyinin mövsümi xəstəliklərlə bağlı əhaliyə müraciətində bildirilib.

Qeyd olunub ki, hazırda əhali arasında ən çox rast gəlinən kəskin respirator virus infeksiyaları, adətən yüksək hərarət, öskürək, boğaz ağrısı, ümumi halsızlıq və bəzən ağırlaşmalarla müşayiət olunur. Risk qrupuna daxil olan şəxslər - yaşlılar, xroniki xəstəliyi olanlar, hamilə qadınlar və uşaqlar üçün bu infeksiyalar daha ağır fəsadlara səbəb ola bilər.

Kəskin respirator virus infeksiyalarına qarşı mübarizədə profilaktik tədbirlər, xüsusilə peyvəndlənmə mühüm rol oynayır. Səhiyyə Nazirliyi tərəfindən profilaktik və əks-epidemik tədbirlərin gücləndirilməsi məqsədilə qrip əleyhinə «Sanofi Pasteur» (Fransa) şirkətinin istehsalı olan tam təhlükəsiz və yüksəkkeyfiyyətli vaksin preparatları ölkəyə gətirilib.

Qripə qarşı peyvənd infeksiyaya yoluxma riskini azaltmaqla yanaşı, xəstəliyin ağır keçməsinin və ağırlaşmaların qarşısının alınmasında effektiv vasitə hesab olunur.

Bununla yanaşı, vətəndaşlara şəxsi gigiyena qaydalarına riayət etmək, əlləri mütəmadi olaraq yumaq, qapalı və sıx məkanlarda tibbi maskalardan istifadə etmək, xəstəlik əlamətləri müşahidə edildikdə evdə qalmaq və özünümüalicədən çəkinərək vaxtında həkimə müraciət etmək tövsiyə olunur.

Əhalinin sağlamlığının qorunması və respirator xəstəliklərə yoluxma hallarının azaldılması məqsədilə Səhiyyə Nazirliyi vətəndaşları məsuliyyətli davranmağa, xüsusilə risk qruplarına daxil olan şəxsləri mövsümi qripə qarşı peyvənd olunmağa çağırır.

Müraciətdə bildirilir ki, qripə qarşı vaksinasiya tam ödənişsizdir, yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrində aparılır.

Tatarıstan Azərbaycanla səhiyyə sahəsində əməkdaşlıqda maraqlıdır

Azərbaycan Səhiyyə Nazirliyində Tatarıstan Respublikası Baş nazirinin müavini - Tatarıstanın sənaye və ticarət naziri Oleq Korobçenkonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə həmçinin Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı daimi nümayəndəsi Murad Qadılşin iştirak edib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, qonaqları salamlayan səhiyyə nazirinin müavinləri İlqar Qasımov, Rasim İsmayılov və Nadir Zeynalov Azərbaycanın Tatarıstanla bir çox sahələrdə ikitərəfli əlaqələrindən söz açıb, möhkəm dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayıblar. Azərbaycanla Tatarıstan arasında səhiyyə sahəsində də ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğu qeyd olunub.

Öz növbəsində, Tatarıstanın nümayəndə heyəti Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında maraqlı olduqlarını diqqətə çatdırıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Qarabağ Universitetində «Antibiotiklərdən sui-istifadəyə yox deyək!» mövzusunda tədbir keçirilib

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsində «Antibiotiklərdən sui-istifadəyə yox deyək!» mövzusunda interaktiv tədbir təşkil edib.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirin əsas məqsədi antibiotiklərin düzgün istifadəsi barədə fikir mübadiləsi aparmaq və gəncləri maarifləndirmək olub.

Tədbirdə universitetin müəllim və tələbələri, həmçinin İSİM-in ekspert və mütəxəssisləri iştirak ediblər.

İSİM-in direktoru Səbinə Babazadə çıxışında müasir təhsil modeli ilə seçilən Qarabağ Universitetinin tibb tələbələrinə uğurlar arzulayıb. O, ictimai səhiyyənin aktual istiqamətlərindən, ölkədə sağlamlığın qorunması üçün Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərdən bəhs edib.

Tədbirdə antibiotiklərdən düzgün istifadənin təşviqi ilə bağlı ətraflı təqdimatlar olub.

Tədbir tələbələrin antibiotiklərlə bağlı suallara cavab verdiyi və öz təkliflərini bildirdiyi interaktiv oyunla davam edib.

«Səhiyyədə rəqəmsal transformasiya və innovasiyalar 2025»

İSİM-də bu mövzuda konfrans keçirilib

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən «Səhiyyədə rəqəmsal transformasiya və innovasiyalar 2025» mövzusunda konfrans təşkil olunub.

Müxtəlif səhiyyə qurumlarının nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən İSİM-in direktoru Səbinə Babazadə konfransın müasir innovativ vasitələrdən istifadəyə, səhiyyə sistemində informasiya texnologiyalarının inkişafı və tətbiqi təcrübəsinə, hazırlanaraq istifadəyə verilən tibbi mövzularda mobil tətbiqlərə və digər aktual mövzulara həsr olunduğunu vurğulayıb.

Öz çıxışında səhiyyə nazirinin müşaviri Rüfət Hacıəlibəyov bildirib ki, səhiyyənin rəqəmsallaşdırılması bu gün dövlətimizin prioritet istiqamətlərindən biridir. R.Hacıəlibəyov səhiyyədə rəqəmsal transformasiya istiqamətində ölkəmizdə yeni layihə hazırlandığını və yaxın zamanda təqdim olunacaq bu layihədən həm tibb işçiləri, həm də vətəndaşlarımızın faydalanacağını diqqətə çatdırıb.

Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev Azərbaycanın səhiyyə sistemində xidmətləri dəstəkləyən rəqəmsal imkanların yaradılmasını qeyd edib, yeni vasitələrin, mobil tətbiqlərin bir sıra məsələlərin həllini asanlaşdırdığını vurğulayıb.

Daha sonra konfransda «Təbabətdə müasir texnologiyaların tətbiqi. Süni intellektin təbabətdə tətbiqi - gələcək, yoxsa bu gün?», «Rəqəmsal səhiyyənin gələcəyi, tibbi rəqəmsal əkiz və elektron resept», «Klinik protokollar və faydalı mənbələr» və digər mövzularda məruzə və təqdimatlar dinlənilib.

Sonda məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

«Səhiyyə sistemi» işçi qrupunun növbəti iclası keçirilib

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın «Səhiyyə sistemi» işçi qrupunun video-konfrans formatında növbəti iclası keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, iclasda gündəliyə müvafiq olaraq səhiyyə sahəsində ölüm səbəbləri üzrə statistik göstəricilərin təhlili aparılıb. Həmçinin, Ailə Sağlamlıq Mərkəzlərinin, tibb məntəqələrinin fəaliyyəti, bu sahə üzrə yeniliklər və irəliləyişlər barədə məlumatlar verilib.

Eyni zamanda, qurumlar tərəfindən əvvəlki iclasın yekunu üzrə verilmiş tapşırıqlara dair məlumatlar dinlənilib.

Sonda 2026-cı il üzrə Fəaliyyət Planına dair təkliflər müzakirə edilib və növbəti iclas üçün qrup üzvlərinə tapşırıqlar müəyyənləşdirilib.

Azərbaycanın ilk beynəlxalq kardiologiya jurnalının 3-cü nömrəsi təqdim edilib

Azərbaycanın ilk beynəlxalq, ingilisdilli, DOI ilə indekslənmiş kardiologiya jurnalı olan «Journal of Heart Disease and Therapy» - «Ürək xəstəlikləri və onların müalicəsi» jurnalının artıq 3-cü nömrəsi çapdan çıxıb. Beynəlxalq redaksiya və rəyçilərə malik, Ali Attestasiya Komissiyası tərəfindən təsdiqlənmiş və dövri nəşriyyatlar siyahısına daxil olunmuş jurnal ictimaiyyətə təqdim edilib.

Təqdimat mərasimi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında keçirilib. Açılış mərasimində çıxış edən Səhiyyə Nazirliyi, Elmi Tədqiqat Kardiologiya İnstitutunun direktoru, professor Gülnaz Dadaşova və AMEA-nın vitse prezidenti, akademik İradə Hüseynova tədbir iştirakçılarını salamlayaraq jurnalın əhəmiyyətindən danışıblar.

Professor Gülnaz Dadaşova çıxışında Azərbaycan kardiologiyasının beynəlxalq elmi arenada tanıdılmasında jurnalın əhəmiyyətini vurğulayaraq, onun tibb elmi və klinik təcrübənin inkişafına töhfə verəcəyini qeyd edib: «Bu jurnal yalnız yerli alimlər üçün deyil, eyni zamanda, beynəlxalq kardiologiya ictimaiyyəti üçün də qiymətli bir platformadır. Biz burada biliklərimizi paylaşır, yeni araşdırma istiqamətlərini müəyyən edirik. Təqdirəlayiq haldır ki jurnalın redaksiya heyətində Avropa, Asiya və Azərbaycanın aparıcı kardioloqları bir araya gəlib».

Tədbirdə iştirak edən professor Alberiko Katapone və professor Ziviad Kipiani jurnalın beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyətini qeyd ediblər və gələcək birgə layihələrin perspektivlərindən danışıblar.

Jurnalın təqdimatını həyata keçirən t.ü.f.d. Vüsal Hacıyev 3-cü nömrənin məzmunu, aktual mövzuları və gələcək planları barədə geniş məlumat verib, beynəlxalq mütəxəssislərlə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Tədbir çərçivəsində jurnalın mövcud elmi nailiyyətləri, araşdırma sahələri və kardiologiya elminin inkişafına töhfəsi geniş şəkildə təqdim olunub.

Tibbi məlumatların konfidensiallığını qorumaq üçün mərkəz yaradılıb

Səhiyyə Nazirliyi nəzdində Kibertəhlükəsizliyə Nəzarət və Monitorinq Mərkəzi (Security Operations Center - SOC) fəaliyyətə başlayıb.

Bu barədə nazirliyin mətbuat xidmətinin məlumatında deyilir ki, Mərkəzin yaradılması səhiyyə sahəsində rəqəmsallaşma prosesinin təhlükəsizliyinin təmin edilməsi, habelə xüsusi əhəmiyyətli məlumat infrastrukturunun mühafizəsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi baxımından mühüm strateji addımdır.

SOC mərkəzi 247 fasiləsiz növbəli rejimdə fəaliyyət göstərərək tibbi informasiya sistemlərinin, pasiyent məlumatlarının və rəqəmsal səhiyyə xidmətlərinin kibertəhlükəsizliyinin təmin edilməsində aparıcı rol oynayacaq. Proaktiv monitorinq, kiberhücumların və informasiya təhlükəsizliyi insidentlərinin erkən aşkarlanması və operativ şəkildə aradan qaldırılması mərkəzin əsas fəaliyyət istiqamətlərindəndir.

Mərkəzin əsas məqsəd və vəzifələrinə tibbi məlumatların konfidensiallığının və bütövlüyünün qorunması, tibb müəssisələrinin fəaliyyətinə mane olan kiberhücumların qarşısının alınması, Nazirliyin tabeliyində olan informasiya sistemlərinin mərkəzləşdirilmiş monitorinqi və insidentlərə operativ reaksiya mexanizmlərinin tətbiqi daxildir.

Səhiyyə sahəsində məlumat təhlükəsizliyinin təmin edilməsi vətəndaşların etimadının qorunması baxımından vacibdir və milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. SOC mərkəzinin fəaliyyəti çərçivəsində Data Loss Prevention (DLP) və Identity & Access Management (IAM) kimi müasir təhlükəsizlik həllərinin tətbiqi yekunlaşma mərhələsindədir və milyonlarla pasiyentin məlumatları ciddi nəzarətdə saxlanılır.

Səhiyyə Nazirliyi səhiyyə sahəsində rəqəmsallaşma və informasiya resurslarının mühafizəsi də daxil olmaqla dövlət siyasətini müəyyən edən və tənzimləyən icra hakimiyyəti orqanı olduğuna görə belə bir mərkəzin yaradılması zəruri idi. Rəqəmsal transformasiya müvafiq mühafizə tədbirlərinin görülməsini zəruri edir. Yeni SOC mərkəzi ölkənin səhiyyə sisteminin kiberdavamlılığının artırılması üçün vacib həlldir.

AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERƏ MÜSABİQƏ ELAN EDİR

V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu

İmmunologiya üzrə elmi şöbə:
Baş elmi işçi – 1.0

Gen mühəndisliyi və biotexnologiya üzrə elmi şöbənin Vaksinlər vənanovaksinlər bölməsi:
Baş elmi işçi – 1.0

Epidemiologiya üzrə elmi şöbə:
Baş elmi işçi – 1.0

Biobank:
Elmi işçi – 1.0

Ünvan: Mustafa bəy Topçubaşov küçəsi 216,
Telefon: 594-78-34

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96. 3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61

E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.